# MİRZƏ RƏHİMOV: ƏSL ZİYALILIQ ETALONU



*İsmayıl KAZIMOV,*
*filologiya elmləri doktoru,*
*professor*

Mürəkkəb və çətin bir yol keçmiş Azərbaycan dilinin daxili inkişaf qanunlarının, istiqamətlərinin, aspektlərinin hərtərəfli və dərindən araşdırılaraq öyrənilməsində tarixi qrammatika elminin mühüm önəmi vardır.

Bu elmin aktual bir sahəsi ilə də mərhum professor Mirzə Şıxəli oğlu Rəhimov məşğul olmuşdur. Bu sahə Azərbaycan dilində feil şəkillərinin formalaşması tarixidir. Mirzə müəllim dilimizdə feil şəkillərini bütövlükdə tarixi səpgidə, diaxronik materiallar əsasında öyrənmişdir. O, feilin mühüm kateqoriyası olan şəkil kateqoriyasına «tarixilik prinsipi»ni tətbiq etmiş, şəkil kateqoriyası üzrə Azərbaycan dilinin türk dilləri arasındakı yeri və mövqeyini müəyyənləşdirmiş, onun həm qədim, həm də müasir dövrə uyğun gələn əlamətlərini təyin etmiş, habelə dil tarixi və tarixi qrammatikamız üçün önəmi olan digər məsələlərə də aydınlıq gətirmişdir.

...Həyatından, təhsilindən sətirlər. M.Ş.Rəhimov 15 dekabr 1929-cu ildə Astara şəhərində anadan olmuşdur. 1937- 1947-ci illərdə Sabir adına Astara şəhər məktəbində oxumuşdur. O, 1948- 1953-cü illərdə Bakı Dövlət Universitetində təhsil almışdır. ADU-nun Şərqşünaslıq fakültəsinin Fars dili şöbəsində ixtisaslaşmışdır. 1953-1956-cı ildə Moskva şəhərində SSRİ EA-nın Dilçilik İnstitutunun aspiranturasında oxumuşdur. 1957-ci ildə o, «Azərbaycan dilinin XIV-XVIII əsrlərə aid yazılı abidələrində feilin indiki və gələcək zamanlarının ifadə formaları» mövzusunda namizədlik, 1966-cı ildə «Azərbaycan dilində feil şəkillərinin formalaşması tarixi» mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1968-ci ildən professor elmi adını almışdır.

Professor M.Rəhimov 1956-61-ci illərdə AMEA-nın Nizami adına Ədəbiyyat və Dil institutunda elmi katib, 1961- 1968-ci illərdə həmin institutda Azərbaycan dili tarixi şöbəsinin müdiri, 1968-1973-cü illərdə isə direktor müavini vəzifəsində çalışıb. O, 1975-ci ildən BDU-nun Şərqşünaslıq fakültəsinin İran filologiyası kafedrasının professoru olub.

Azərbaycanşünas alim, respublikanın «Əməkdar müəllimi»dir.

Namizədlik işinin rəhbəri böyük alim, akademik Məmmədağa Şirəliyev olmuşdur. Məmmədağa müəllim Mirzədən böyük ümidlər gözləyirdi. Mirzə müəllim ümidləri doğrultdu. Gənclik illərində həmin alimdən dərs almış, ilk günlər müəllimlik fəaliyyəti onu şöhrətləndirmişdir.

M.Rəhimov çoxcəhətli yaradıcılıq yoluna malik nüfuzlu filolq alimdir. Yuxarıda qeyd etdiyimiz kimi, tarixi qrammatika ilə bağlı hər bir türk respublikasında tanınan tədqiqatı onun elmi yaradıcılığının mühüm bir qolunu təşkil edir. Həmin monoqrafiya bu şəxsiyyətin tarix elminə, dil tarixinə, tarixi qrammatikaya dərindən bağlı olduğunu göstərir. Millətin, mənsub olduğu xalqın keçmişini, yaratdığı dilin qrammatik quruluşunu, keçmişini məhəbbətlə tədqiq edən alimin qədim qrammatik quruluş haqqında baxışı, əlbəttə, obyektivdir. Müəllifin tarixi qrammatika, xüsusən də feil şəkillərinin tarixi ilə bağlı araşdırmaları bizə elə gəlir ki, Azərbaycan dilçiliyində M.Şirəliyevin, Ə.Dəmirçizadənin, H.Mirzəzadənin uğurlu tədqiqat ənənələrinin davamıdır. Onun feilin şəkilləri ilə əlaqədar tədqiqatları, sözün həqiqi mənasında, heyrət doğuracaq faktlarla zəngindir. Morfoloji göstəricilərin mənbələr əsasında izahı həm inandırıcı, həm də mükəmməldir. Müəllif tarixi dil hadisə və proseslərini bu xüsusda üzə çıxarmışdır. Mirzə müəllimin bu aspektdə apardığı araşdırmalarda maraq doğuran məqamlardan biri də onun qənaətinə görə, əvvəlki fikirlərdə bəzi yanlışlıqların olmasıdır. Məsələn, kitabının 51-ci səhifəsində yazır ki, bütün bunları nəzərə alaraq, biz belə bir nəticəyə gəlirik ki, bu gün bir sıra dialekt və şivələrimizdə əmr şəklinin I şəxs cəmini ifadə etmək üçün işlənən- əyin forması dilimizin yazılı abidələrində əmr şəklinin əsasən I şəxs təkini, bəzi hallarda isə cəmini bildirmək üçün işlənən –ayın,- əyin formasının davamı deyil və ümumiyyətlə, bunlar müxtəlif mənşəli şəkilçilərdir. Buna görə də biz prof. Ə.-Dəmirçizadənin də «Kitabi-Dədə Qorqud» abidəsinin dilindən danışarkən bu şəkilçi haqqında söylədiyi aşağıdakı fikri ilə razılaşa bilmirik. M.Rəhimovun apardığı tədqiqatların uğurlu cəhətlərindən biri məhz yanlış mülahizələrlə barışa bilməməyindədir. Yəni məsələlərə tənqidi yanaşmasındadır.

Mirzə müəllimin namizədlik dissertasiyası da o zaman ciddi marağa səbəb olmuşdur. O, gələcək zamanın tarixən hər bir dilin öz qrammatik quruluşuna uyğun ifadə olduğunu göstərir, həmin ifadə vasitələri məqsədəuyğun şəkildə istifadə olunduqda maraq doğuran üslubi imkanlar yaradır. Həm indiki, həm də gələcək zamanın tarixi üslubi əlaməti ünsiyyətin məqsəd və ideyasından asılı olaraq müxtəlif semantik çalarların ifadə olunması ilə bağlıdır. Gələcək zamanın hər iki forması kontekstdəki semantikasına görə bir mətndə digər bir zamanın funksiyasını yerinə yetirdiyi halda, başqa bir mətndə əlavə semantik yük daşıyır. Müəllifin bu işində əsas nöqteyi-nəzəri ona yönəlir ki, gələcək zamanın obyekt seçilmiş dövrlərdə indiki zaman forması ilə ifadə olunması yalnız Azərbaycan dilinə xas olan xüsusiyyət deyildir. Bu hal özünü istər geneoloji, istərsə də morfoloji quruluş cəhətdən fərqli olan dillərdə də göstərir. Bu fərqli dillərdə (fars dilində də) indiki zaman formasının gələcək zamanı ifadə etməsini, belə bir üslubi xüsusiyyətin yalnız bizim dilimizdə deyil, bir sıra başqa bir dillərə də xas olan ümumi dil hadisəsi olmasını təsdiq edir.

Mirzə müəllim Azərbaycan dilçiliyi, türkologiya və filologiyasına aid çoxsaylı elmi əsərlərin müəllifidir.

İctimai TV-də Mirzə Rəhimovun həyat və yaradıcılığına həsr edilmiş «Yadigarlar» adlı verilişdə vurğulandı ki, alim öz geniş diapozonlu fəaliyyəti, zəngin yaradıcılıq irsi ilə Azərbaycan və fars dilçiliyinə, bütövlükdə türkologiya aləminə qiymətli əsərlər bəxş etmişdir. Elmi ictimaiyyət arasında rezonans doğuran sanballı monoqrafiyaları, fars dilinə aid dərslikləri, dərs vəsaitləri, proqramları və s. ilə özənə əbədi yer qazandırmışdır.

Mirzə Rəhimovun ilk monoqrafiyası 1965-ci ildə çap edilmişdir. Çoxsaylı oxucuların arzu və istəkləri nəzərə alınaraq «Azərbaycan dilində feil şəkillərinin formalaşması tarixi» kitabı ikinci dəfə 2014-cü ildə yenidən nəşr edildi.

Əsər təkcə Azərbaycan dilinin tarixi qrammatikasında deyil, həmçinin də türkologiyada möhtəbər elmi-nəzəri qaynaqdır. «Zəngin dil materialları toplanmış və müvafiq feil kateqoriyaları yüksək nəzəri səviyyədə təhlil olunmuşdur. Mövzu elədir ki, türk dilləri ilə müqayisəyə aparır. Bu baxımdan digər türk dilləri ilə də yeri gəldikcə aparılan müqayisələr sayəsində müəllifin fikirləri ümumtürkoloji, nəzəri səviyyədə ümumiləşdirmələrlə xarakterizə edilmişdir. Bu monoqrafiya müəllifi, sözün həqiqi mənasında, məşhurlaşdırmışdır. Özünəqədərki müəlliflərdən fərqli olaraq M.Rəhimov feilin şəkillərini bir-birinndən təcrid olunmuş halda, qarşılıqlı əlaqədə öyrənmiş, onların formalaşması və mənaca təkmilləşməsində həm ümumi, həm də spesifik, fərqli cəhətləri aşkarlamışdır. Ən əsası, tədqiqatçı hər bir şəklin qədimdən müasir dövrə qədər keçdiyi inkişaf yolunu aydınlaşdırmışdır. Müəllif «Kitabi-Dədə Qorqud» abidəsi (Drezden və Vatikan nüsxələrinin fotofaksimilesi) və ümumiyyətlə, Azərbaycan ədəbiyyatı klassiklərinin XIX əsrə qədərki əlyazmalarını əsas tədqiqat mənbəyi kimi götürmüş, həmin mənbələr üzrə lazımi dil materialları toplamışdır.

Bu monoqrafiyasına görə akademik T.İ.Hacıyev Mirzə müəllimi çox haqlı olaraq «Prof. Mirzə Kazımbəyin şərqşünaslıq məktəbinin varislərindən olduğunu» təsdiqləyir. Onun böyük istedad sahibi olduğunu göstərir: «O, iki ixtisasın nümayəndəsidir və daşıdığı istedad hər iki ixtisasa eyni dərəcədə aiddir. T.Hacıyevin düşüncəsinə görə, Mirzə Rəhimov istedadlı türkoloqdur, Mirzə Rəhimov istedadlı iranşünasdır. Mirzə müəllim Moskvada aspirantura keçib, Moskva türkoloji mərkəzinin yetişdirməsidir. Moskva türkologiyası bünövrəsi Mirzə Kazımbəyin qoyduğu, dünyanın sayılan-seçilən mükəmməl rus şərqşünaslıq məktəbinin davamıdır. Mirzə həm fitri istedadının, həm də keçdiyi məktəbin mükəmməlliyinin sayəsində mükəmməl elmi şəxsiyyət olmuşdur»

Qrammatik semantika məsələləri feilin şəkilləri daxilində xüsusi bir mövzunu təşkil edir. Semantik məna mətn yaxud nitq situasiyasında feilin kateqoriyalaşmış vəziyyətdə qazandığı mənadır. Bu həm də leksik məna əsasında əmələ gəlir, ümumiləşir, mücərrədləşir. Feil şəkillərinin qrammatik semantikası feil kökünün şəkil yaradan morfoloji göstərici ilə birliyinin yaratdığı mənadır. Feillə ona qoşulan şəkil formasının arasında olan əlaqədən, münasibətdən formalaşır, «dilin özündən irəli gəlir». Məhz qrammatik kateqoriya kimi şəkil kateqoriyasını məzmun və ifadə planında bir-birinə qarşı duran qrammatik semantikanın vəhdəti əmələ gətirir.

Ümumiyyətlə, feillərdə şəkil dəyişməsi bir çox reallıqları formalaşdırır. Belə ki subyektin işə, hərəkətə müəyyən münasibəti cümlədə modallığın, yəni danışanın söylədiyi fikrə, obyektiv gerçəkliyə münasibətinin təzahürünə səbəb olur. Həm də müəyyən şərt münasibət morfoloji üsulla- feildə xüsusi şəkilçilərlə ifadə edilir. Bu isə öz qaydasında feillərin müxtəlif şəkilçilər qəbul edərək dəyişməsinə, müxtəlif formalara, şəkillərə düşməsinə, şəkilçiləşməsinə səbəb olur (Q.Kazımov).

M.Rəhimov bu məsələləri, məhz qrammatik semantika məsələlərini tarixi süzgəcdən keçirərək öyrənmişdir.

Məşhur türkoloq A.N.Kononov M.Rəhimovun feil şəkillərinin tarixinə dair əsərinə yüksək qiymət vermişdir. Doktorluq dissertasiyasının müdafiəsində bəlli olur ki, Mirzə müəllim də Kazımbəyin tələbələrinin tələbəsi hüququnu, statusunu qazanan gənc şərqşünas alimlərdəndir.

Azərbaycan dili tarixinin, tarixi qrammatikasının görkəmli tədqiqatçısı feilin tarixi formalarına aid müəyyənləşdirdiyi başlıca əlamətlər mahiyyət etibarı ilə dərin fikirlərin məhsulu kimi meydana çıxmışdır.

Məlum olduğu kimi, tarixi qrammatika morfoloji paradiqmaların tarixən inkişafını, bu strukturun bütün sahələrində baş verən təkamülü və dəyişməni tədqiq etməklə məşğul olur. İnkişaf tarixi boyu müəyyən dilin qrammatik tərkibində, qrammatik (morfoloji) qayda və qanunlarında baş vermiş dəyişmələri öyrənib, həmin dilin qrammatik sistemininin inkişaf tarixini müəyyənləşdirmək tarixi qrammatikanın mövzu və məqsədini təşkil edir.

Azərbaycan dilinin tarixi qrammatikası «Kitabi-Dədə Qorqud» dastandlarının dili də daxil olmaqla dilimizin morfoloji və sintaktik quruluşunun təxminən minillik tarixini öyrənir. Prof. M.Rəhimov müəyyən müddət ərzində Azərbaycan dilinin feil, xüsusən də feilin forma kateqoriyasında baş verən dəyişiklikləri təhlil edərək, mövcud qanunauyğunluqları müəyyənləşdirir, dilimizin morfoloji baxımdan inkişaf yollarını və meyillərini izah edir.

«Tarixi qrammatikanın nəzəri önəmi aşkar şəkildə bu cür bir faktdan irəli gəlir ki, o dilin şəkli olan morfoloji əlamətini tədqiq edir ki, bu xarici formada da onun qrammatika məzmunu, semantikası ifadə olunur və dil öz tarixi funksiyasını həyata keçirir. Dili onun morfemlərindən kənarda öyrənmək mümkün deyildir, ona görə ki bu, birlikdə vahid bütöv olan məzmunla formanı ayırmaq demək olardı» (M.İ.-Matuseviç)

*(Davamı 7-ci səhifədə)*

# MİRZƏ RƏHİMOV:
# ƏSL ZİYALILIQ ETALONU

*(Əvvəli 3-cü səhifədə)*

Xarici tədqiqatçının bu fikrini Mirzə müəllimin əməli fəaliyyətinə də aid etmək olar. Professor M.Rəhimovun dilimizin tarixi morfologiyası sahəsində apardığı tədqiqat işləri, şübhəsiz, böyük əhəmiyyətə malikdir.

Akademik A.Axundovun fikirlərindən: «Uzun illər ərzindəki müşahidələrimə görə, o, nəinki Şərqşünaslıq fakültəsində, bütünlükdə universitetdə öz alimliyi, müəllimlik sənətinin səviyyəsi və parlaq, bütun təbiəti ilə seçilən ən adlı-sanlı müəllimlərdən olub. Mirzə çox kamil bir insan idi, elmi əsərləri dəqiqliyi və mükəmməlliyi ilə seçilirdi, davranışı mənalı təmkinliyi ilə... Elmi konfranslarda dərin məzmunlu məruzələr edərdi. Bütün xatirələrdə Mirzə müəllimin işıqlı şəxsiyyət olması göstərilir». Onun Azərbaycan dilinin tarixi qrammatikası sahəsində xidmətləri belə xarakterizə olunur: «M.Rəhimovu müasir elmi səviyyədə olan Azərbaycan dilinin tarixi qrammatikasının həqiqi tədqiqatçısı hesab etmək olar»

Y.Seyidovun fikirlərindən: Mirzə müəllim feilin əmr, arzu, şərt, vacib və lazım şəkillərininin tarix boyu keçirdiyi inkişaf yolları haqqında öz sözünü demiş, hər bir şəkli ifadə etmək üçün mövcud morfoloji göstəricilərin, eləcə də sintetik və analitik ifadə formaların məhsuldar və qeyri-məhsuldar işlənməsini, hər birinin özünəməxsus məna çalarlarını, fəaliyyət dairəsini və s. müəyyənləşdirmişdir.

O, faktları Kitabi-Dədə Qorqudun, Q.Bürhanəddinin, Nəsiminin, Xətainin, Füzulinin, Kişvərinin, Qətran Təbrizinin, Əmaninin M.P.Vaqifin əsərlərindən seçib toplamışdır. «Şühədənamə», «Şəhriyar» kimi dastanların materiallarından bacarıqla istifadə etmişdir. Aşıq ədəbiyyatına da müraciət etmişdir.

M.Rəhimov özü yazır: «Əgər feilin bir sıra şəkilləri (məsələn, şərt, arzu) tarix boyu əsasən bir formaya malik olaraq çoxmənalılıqdan vahid mənaya doğru inkişaf edib təkmilləşirsə, əmr şəkli malik olduğu məna xüsusiyyətlərini əksər halda mühafizə edərək çoxformalılıqdan vahid formalılığa doğru inkişaf etmiş, bu zəmin əsasında ədəbi dilimizdə təşəkkül tapmışdır» (Bax: Rəhimov Mirzə. Azərbaycan dilində feil şəkillərinin formalaşması tarixi. Bakı, 2014, s.10).

Bu fikir tamamilə düzgündür, dilimizdə feil şəkillərinin formalaşması və inkişafı yollarını proqnozlaşdırır.

M.Rəhimov yüksək ixtisaslı kadrlar hazırlanması işində də xidmətləri böyükdür. Özünün 50 illik pedaqoji fəaliyyəti müddətində o, on minlərlə tələbəyə dərs demiş, fars dilini sevdirmiş, başqa dillərin öyrənilmə texnologiyasını mənimsədə bilmişdir.

Mirzə müəllim dilçiliyimizdə mənşə və morfoloji quruluş cəhətindən müxtəlif olan dillərin müqayisəli-tipoloji araşdırılması sahəsində də xeyli əmək sərf etmişdir. «Fars və Azərbaycan dillərinin müqayisəli qrammatikası sahəsində gördüyü işlər, yazdığı dərsliklər təqdirəlayiqdir. Fars diini öyrənən azərbaycanlı tələbələr üçün çox lazımlıdır. Fars dili geneoloji baxımdan hind-Avropa dillərinin İran qrupuna aiddir.

Qızı filologiya üzrə fəlsəfə doktoru, dosent Seçenov adına Moskva Dövlət Universitetinin Bakı filialının «Bioloji –humanitar və ictimai elmlər» şöbəsinin müdiri Dürdanı Rəhimzadə atasının övladları üçün çəkdiyi əzab-əziyətdən danışır.

M.Rəhimov Beynəlxalq konfrans və simpoziumlarda öz fəallığı ilə tanınmışdır. 1996, 1999-cu illərdə İranın Tehran şəhərində etdiyi çıxışlar dünya alimlərinin ciddi marağına səbəb olmuşdur.

Mirzə müəllimin anadan olmasının 90 illiyi respublikanın çox yelərində- Astarada, Lənkəranda, Bakıda keçirilmişdir. Dilçilik İnstitutunun direktoru akademik Möhsün Nağısoylu: mənalı ömür yolundan, geniş və səmərəli elmi-pedaqoji fəaliyyətindən söz açmış və bildirib ki, dilçilik elminin ən mürəkkəb sahələri olan fars dilçiliyi, fars dilinin nəzəri qrammatikası, leksikologiyası, dialektologiyası və tarixi morfologiyası Mirzə Rəhimovun başlıca araşdırmaları sırasındadır. M.Nağısoylu türkoloq aliminin AMEA-nın inkişaf tarixində müstəsna xidmətləri olduğunu, Şərqşünaslıq elminin inkişafında Mirzə müəllimin əməyini xüsusi vurğulamışdır.

Professor M.Rəhimov 100-dən çox elmi məqalənin müəllifidir. «Sovet dövründə Azərbaycan ədəbi dilinin inkişafı qanuauyğunluqları» əsərini də xüsusi qeyd etmək olar. «Fars dili» dərsliyi Şərqşünasldıq fakültələrində neçə illərdir tədris olunur.



Metodik vəsaitləri tələbə, magistr və professor-müəllimlərin stolüstü kitablarındandır: «Fars dilinin nəzəri qrammatikası», «Fars dilçiliyinin müasir problemləri», «Fars dilinin leksikologiyası», «Fars dilinin dialektologiyası», «İran filologiyasına giriş» və s.

Professor 2009-cu ildə Azərbaycan Prezidentinin sərəncamı ilə Azərbaycan təhsilinin və elminin inkişafındakı xidmətlərinə görə «Əməkdar müəllim» fəxri adına layiq görülmüşdür.

Dünyasını bu günlərdə dəyişmiş professor Roza Eyvazova «Mirzə Rəhimov və Azərbaycan dili tarixi məsələləri» mövzusunda məqaləsində böyük və görkəmli alimin elmimiz qarşısındakı xidmətlərini səciyyələndirmişdir. Qeyd edək ki,bu mövzunu daha da genişləndirərək Mirzə müəllim haqqında dissertasiya işləri yazmaq olar.

Beləliklə, onun elmi fəaliyyətində əsas yeri tarixi qrammatika, xüsusən də feilin şəkillərinin tarixi problemləri təşkil edir. Görkəmli Azərbaycan dilçisinin elmi yaradıcılığında dilimizin morfoloji quruluşunun bir sıra mühüm məsələləri (feil şəkillərinin tarixi və s.) elmi izahını tapmışdır. Mirzə müəllim təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqlarda da tanınır: Rusiyada, İranda, Türkiyədə...

Mirzə müəllim yüksək intellekt, zəngin mənəviyyata malik alim, təmkinli və müdirik ziyalı idi. Dilçilik institutuna gələndə bir-bir hamı ilə görüşərdi, hal-əhval tutardı.

...İllər keçir, nəsillər, düşüncələr dəyişir... Ömrünü, gününü həqiqi elmə həsr edənlər isə yaşayır, öz yoxluqluğundan sonra da yeni nəşr edilən əsərləri ilə, nə qədər qəribə olsa da, fəaliyyət göstərirlər. Mirzə müəllim kimi...

*19 may 2020-ci il*